Təhsil millətin gələcəyidir!

Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

21 fevral 2026-cı il №07 (9162) www.muallim.edu.az muallim@media.edu.az

**21 fevral Beynəlxalq Ana Dili Günüdür!**

## "Öz dilinizi heç vaxt unutmayın və öz ana dilinizi heç bir başqa dilə dəyişməyin"

## "Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir"





*"Öz dilinizi heç vaxt unutmayın və öz ana dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz. Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur".*

*Heydər ƏLİYEV, Ümummilli Lider*

*"Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir".*

*Prezident İlham ƏLİYEV*

## Daha effektiv, şəffaf və əlçatan

**Rəqəmsal mühitdə təhsil alan şagirdlər süni intellekt və innovasiya əsaslı iqtisadiyyat üçün daha hazırlıqlı olurlar**



Bax səh.5

## "Böyük Qayıdış"da təhsilin rolu strateji xarakter daşıyır

*Qarabağ Universitetinin gənc müəllimi*

Bax səh.7



**"Qarabağ Universitetində fəaliyyət mənim üçün qürur hissidir"**

Bax səh.7

**Dünyanın ən savadlı ölkələri**

Bax səh.8

**Sinifdə də, səngərdə də QƏHRƏMAN MÜƏLLİM**

Bax səh.6



# Azərbaycan və Mərakeş Krallığı arasında elm və təhsil sahəsində əməkdaşlıq genişləndirilir

## Emin Əmrullayev Mərakeş Parlamentinin Nümayəndələr Palatasının sədri ilə görüşüb



**Elm və təhsil naziri Emin Əmrullayev Mərakeş Krallığında rəsmi səfərdə olub.**

Səfər çərçivəsində fevralın 16-da Mərakeş Parlamentinin Nümayəndələr Palatasının sədri Rəşid Təlbi Alami ilə görüş baş tutub.

Görüş çərçivəsində iki ölkə arasında elm və təhsil sahəsində cari əməkdaşlıq və yaxın gələcəkdə keçirilməsi nəzərdə tutulan təşəbbüslər barədə müzakirə aparılıb.

## Mərakeşin milli təhsil, məktəbəqədər və idman naziri ilə görüş



**Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Mərakeş Krallığına səfəri çərçivəsində bu ölkənin milli təhsil, məktəbəqədər və idman naziri Mohamed Saad Berrada ilə görüş keçirilib.**

Görüş çərçivəsində iki ölkə arasında məktəbəqədər və ümumi təhsil, eləcə də STEAM təhsili sahəsində cari əməkdaşlıq və yaxın gələcəkdə keçirilməsi nəzərdə tutulan təşəbbüslər barədə ətraflı müzakirə aparılıb.

## Azərbaycan və Mərakeş arasında elm və ali təhsil sahəsində əməkdaşlıq Sazişi imzalanıb





### Ali təhsilin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə tələbə mübadiləsi həyata keçiriləcək

**Elm və təhsil naziri Emin Əmrullayev Mərakeş Krallığına səfəri çərçivəsində bu ölkənin ali təhsil, elmi tədqiqat və innovasiya naziri Azeddin Əl Midaui ilə görüşüb. Görüş zamanı tərəflər elm və ali təhsil sahəsində həyata keçirilməsi nəzərdə tutulan təşəbbüslər barədə fikir mübadiləsi aparıblar.**

Daha sonra "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Mərakeş Krallığının Ali Təhsil, Elmi Tədqiqat və İnnovasiya Nazirliyi arasında elm və ali təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanıb.

Saziş ali təhsilin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə tələbələrin mübadiləsinin həyata keçirilməsi, elmi və ali təhsil müəssisələri arasında birbaşa əlaqələrin qurulması və birgə layihələrin icrası da daxil olmaqla bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.



## Emin Əmrullayev ICESCO-nun baş direktoru ilə görüşüb

**Fevralın 17-də elm və təhsil naziri Emin Əmrullayev İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş direktoru Dr. Salim bin Məhəmməd əl-Malikin dəvəti ilə ICESCO-nun Rabat şəhərində yerləşən Baş qərargahında səfərdə olub.**

Nazir təşkilatın Baş qərargahı ilə tanış olub, daha sonra ICESCO-nun baş direktoru Dr. Salim bin Məhəmməd əl-Malik ilə ikitərəfli görüş keçirib.

Görüş zamanı iki qurum arasında mövcud əməkdaşlıq çərçivəsində həyata keçirilən fəaliyyətlər və gələcək inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan Suriya Ərəb Respublikasında dağıdılmış və ya zədələnmiş məktəblərin tikintisi və təmirinə dəstək göstərəcək







**Fevralın 17-də İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Rabat şəhərində yerləşən Baş qərargahında Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, Suriya Ərəb Respublikasının təhsil naziri Dr. Mohammed Abdulrahman Turko və ICESCO-nun baş direktoru Dr. Salim bin Məhəmməd əl-Malikin iştirakı ilə "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Suriya Ərəb Respublikasının Təhsil Nazirliyi və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında Suriya Ərəb Respublikasında təhsil infrastrukturunun bərpası üzrə strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb.**

İmzalanma mərasimi zamanı çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq çərçivəsində İslam dünyasında təhsil imkanlarının genişləndirilməsinə və təhsil infrastrukturunun inkişafına töhfə verməyə xüsusi əhəmiyyət göstərdiyini qeyd edib. Nazir bu xüsusda Azərbaycan Respublikası Hökumətinin dəstəyi ilə Suriya Ərəb Respublikasında təhsil infrastrukturunun bərpasına yönəlmiş təşəbbüsün əhəmiyyətini vurğulayıb.

Nazir bildirib ki, bu təşəbbüs Suriya Ərəb Respublikasında uşaqlar və gənclər üçün təhlükəsiz, müasir və keyfiyyətli təhsil mühitinin yaradılmasına xidmət edəcək.

ICESCO-nun baş direktoru Dr. Salim bin Məhəmməd əl-Malik çıxışında imzalanmış Sazişin Suriyada təhsil infrastrukturunun bərpasına mühüm töhfə verəcəyini, eyni zamanda, İslam dünyası ölkələri arasında əməkdaşlığın və həmrəyliyin daha da gücləndirilməsinə xidmət edəcəyini vurğulayıb.

# “Övraqi-nəfisə” jurnalının transliterasiya nəşrinin təqdimatı olub





**Fevralın 17-də Azərbaycan Milli Konservatoriyasında “Övraqi-nəfisə” jurnalının transliterasiya nəşrinin təqdimatı olub. Tədbir “Övraqi-nəfisə” jurnalının transliterasiya nəşrinə həsr olunmuş videoçarxın nümayişi ilə başlayıb.**



Bildirilib ki, incəsənətin ən zəngin səhifələrini özündə cəmləşdirən “Övraqi-nəfisə" bir əsr sonra milli mətbuatımızın 150 illik yubileyinə töhfə vermək niyyətilə “Ədibin Evi” Ədəbiyyata Dəstək Fondu tərəfindən yenidən gündəmə gətirilib. ADA Universitetinin təşəbbüs və dəstəyi sayəsində ərəb qrafikalı əski Azərbaycan əlifbasından latın qrafikalı müasir əlifbaya transliterasiya olunaraq nəşr edilib.

Tədbirdə çıxış edən Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaş-zadə bildirib ki, “Övraqi-nəfisə” ifadəsi nəfis, incə və dəyərli səhifələr anlamını daşıyır. Onun sözlərinə görə, zaman keçəcək, lakin bu layihə Azərbaycan mədəniyyətinin, milli incəsənətimizin və ümumən ədəbiyyat-musiqi tariximizin ən parlaq səhifələrindən biri kimi yaddaşlarda qalacaq.

Nəşrin milli mətbuatımızın 150 illiyinə həsr olunduğunu vurğulayan “Ədibin evi” Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehralıyeva qeyd edib ki, yubiley tarixləri yalnız təqvim hadisəsi deyil, həm də tarixi irsimizə yenidən nəzər salmaq, müəyyən məsələləri gündəmə gətirmək üçün mühüm fürsətdir.

Jurnalın transliteratoru, qeyd və şərhlərin müəllifi, filoloq və tərcüməçi Azad Ağaoğlu layihənin hazırlanma mərhələsində xüsusi həssaslıq və peşəkarlıq nümayiş etdirildiyini bildirib. O qeyd edib ki, nəşrin bədii və elmi hissələri jurnalın ümumi strukturu və konsepsiyasına uyğun şəkildə tərtib olunub, transliterasiya və şərhlər üzərində ciddi elmi iş aparılıb.

Milli Məclis sədrinin müavini akademik Rafael Hüseynov vurğulayıb ki, bu jurnal Azərbaycan üçün son dərəcə nəcib və əhəmiyyətlidir. Onun sözlərinə görə, belə layihələr milli yaddaşı qoruyur, azərbaycançılıq ideyasını möhkəmləndirir və gələcək nəsillərə etibarlı mənbə ötürür. Qısa müddətdə görülən işlər yüksək qiymətə layiqdir və zaman keçdikcə bu zəhmətin dəyəri daha aydın görünəcək.

Tədbir bədii hissə ilə davam edib.

Sonda çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev təqdimat mərasiminin çox gözəl sözlərlə yadda qaldığını bildirib və əməyi keçən hər kəsə təşəkkürünü çatdırıb.

**AZƏRTAC**

# Nazir müavini Xırdalanda vətəndaşları qəbul edəcək

**Elm və təhsil nazirinin müavini İdris İsayev 25 fevral tarixində Xırdalan şəhərində vətəndaşları qəbul edəcək.**




Qəbulda Sumqayıt, Abşeron, Xızı, Qubadlı və Zəngilan sakinləri iştirak edə bilərlər.

Adları çəkilən şəhər və rayonların sakinləri 20 fevral (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə “WhatsApp” vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

# "Hüquqlarınla parla!"
## layihəsinin bağlanış tədbiri keçirilib

**Fevralın 17-də Tofiq İsmayılov adına 6 nömrəli məktəb-liseydə Beynəlxalq Uşaq Hüquqları Gününə həsr olunmuş “Hüquqlarınla parla!” layihəsinin bağlanış tədbiri keçirilib.**



Tədbirdə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, səhiyyə nazirinin müavini İlqar Qasımov, Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədr müavini Faiq Ağayev və digər məsul şəxslər iştirak ediblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi və Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.




Gənc nəsli gələcəkdə böyük çağırışlar və imkanlar gözləyir

Tədbirdə çıxış edən ombudsman Səbinə Əliyeva uşaqların hərtərəfli inkişafına yönəlmiş layihələrin ölkə üzrə həyata keçirildiyini, müasir standartlara cavab verən təhsil, səhiyyə və sosial infrastruktur obyektlərinin istifadəyə verildiyini bildirib. O həmçinin uşaq hüquqları ilə bağlı qanunvericilik təşəbbüslərinə Ombudsman Aparatı tərəfindən töhfələrin verildiyini qeyd edib.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova uşaqların əsas vəzifəsinin oxumaq və sağlam düşüncəli olmaq olduğunu vurğulayıb, gələcəkdə ölkənin idarə olunmasında fəal iştirak etmələrinin əhəmiyyətini qeyd edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova layihənin il ərzində qarşıya qoyulan hədəflərə doğru fəal şəkildə irəlilədiyini və bir çox dövlət qurumlarını birləşdirdiyini bildirib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında sosial şəbəkələrin həm müsbət, həm də mənfi təsirlərindən danışıb, şagirdlərin rəqəmsal resurslardan düzgün və məqsədyönlü istifadə etməsinin vacibliyini vurğulayıb. Nazir müavini bildirib ki, intellektual yarışlarda və oyunlarda iştirak edən şagirdlərin bilik və bacarıqları daha yüksək olur və bu təcrübə onların insan kapitalının inkişafına böyük töhfə verir. Firudin Qurbanov gənc nəsli gələcəkdə rəqəmsal texnologiyalar, süni intellekt və robotlaşdırılmış sistemlər sahəsində qarşılaşacağı çağırışlara hazır olmağa çağırıb.

Daha sonra “Regional İnkişaf” İctimai Birliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Murad Qasımlı təqdimatla çıxış edərək layihə çərçivəsində görülən işlər barədə iştirakçıları məlumatlandırıb.

Tədbirdə uşaqların hüquqlarının müdafiəsi, erkən nikah və zorakılıq kimi risklərdən qorunması, sağlam qidalanma və həyat tərzi, sosial rifahın gücləndirilməsi və təcrübi həyata inteqrasiya məsələləri də diqqət mərkəzində olub.

Tədbirin sonunda layihə çərçivəsində təlimlərdə yüksək nəticə göstərən məktəblilər, eləcə də həssas kateqoriyadan olan uşaqlar üçün təşkil olunan keys müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Qeyd edək ki, layihə Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikası Milli Məclisi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı, Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, "Regional İnkişaf" İctimai Birliyi, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşkilatçılığı, “Nar” şirkətinin maliyyə dəstəyi ilə həyata keçirilib.

**Mərziyyə KAZIMZADƏ**

**Firudin QURBANOV**

**“Elmi araşdırmalar göstərir ki, intellektual yarışlarda və oyunlarda iştirak edən şagirdlərin mənimsəmə göstəriciləri bu cür fəaliyyətlərdə iştirak etməyənlərlə müqayisədə təxminən 35 faiz daha yüksək olur.**

**Nazirliyin təşkil etdiyi intellektual yarışlarda iştirak edən şagirdlər böyük təcrübə qazanırlar. İnsan kapitalı hər bir ölkənin əsas sərvətidir. Onu inkişaf etdirməyin isə iki yolu var. Birincisi formal təhsil, yəni təhsil aldığımız müəssisələrdə əldə etdiyimiz biliklərdir. Digəri isə informal təhsildir: müxtəlif təcrübələrdən qazandığınız bilik və bacarıqlar. Məhz bu müsabiqədə əldə etdikləriniz də informal təhsilin bir hissəsidir. Bunun insan kapitalının formalaşmasına çox böyük müsbət təsiri var.**

**Gənc nəsli gələcəkdə böyük çağırışlar və imkanlar gözləyir. Hansı sahələrin ön plana çıxacağını indidən dəqiq demək çətindir. Biz bilmirik ki, yaxın illərdə bizi hansı yeniliklər gözləyir. Lakin artıq müəyyən konturlar görünür və bunlar daha çox rəqəmsal texnologiyalar, süni intellekt və robotlaşdırılmış sistemlərlə bağlıdır. Dünyada bu sahələr çox sürətlə inkişaf edir.**

**Sizi nələrin gözlədiyini tam bilmək çətindir, amma bu dəyişikliklərə hazır olmaq vacibdir. Bizim əsas məqsədimiz sizi elə hazırlamaqdır ki, qarşılaşacağınız bütün yeniliklərə və vəzifələrə uğurla cavab verə biləsiniz. Əgər hazır olmasanız, ölkənin gələcək inkişafında və modernləşməsində fəal iştirak etmək çətin olacaq. Buna görə də çox çalışmaq lazımdır”.**



**Hər bir millətin milli-mənəvi irsini, maddi-mədəni sərvətlərini qoruyan, inkişaf etdirən və dünyada tanıdan ən mühüm və ən güclü vasitələrdən biri ana dilidir. Ana dili hər bir fərdin mənəvi zənginləşməsində, dünyagörüşünün genişlənməsində, yüksək səviyyədə təhsil almasında və cəmiyyət üçün layiqli vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Məhz ana dili hər bir millətin başqa xalqların mədəni irsi ilə tanış olmağa və zənginləşməsinə geniş imkan yaradır. Hər bir dil özündə tarix yaşadır. Dilin dövlət dili statusuna yüksəlməsi milli dövlətçilik tarixinin parlaq səhifəsi, xalqın öz taleyinə sahib çıxmasının, dövlət qurmaq və onu qorumaq əzminin, eyni zamanda dilin zənginliyinin sübutudur. Xalqımız xoşbəxtdir ki, doğma Azərbaycan dili keçmişimizi, bu günümüzü və sabahımızı özündə yaşadır. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycan dilinin hərtərəfli inkişafı və zənginləşdirilməsi dövlət siyasətinin əsas prioritet istiqamətlərindən birinə çevrilib. Bu gün dilimiz ən yüksək siyasi, iqtisadi və mədəni tribunalardan səslənir.**




**Dil hər bir xalqın yaddaşı, milli kimliyidir. Ana dilinin taleyi isə təkcə filoloji müzakirə predmeti deyil, milli varlığın, dövlətçilik ənənəsinin və mədəni suverenliyin əsas göstəricisidir. Dövlət başçısı İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində ana dilimizin saflığının qorunması ilə bağlı səsləndirdiyi fikirlər, əslində, milli varlığımızın gələcəyinə yönəlmiş strateji çağırışdır. Azərbaycan dili dövlətçiliyimizin sarsılmaz sütunu, xalqımızı vahid məfkurə ətrafında birləşdirən mənəvi sərhədimizdir. Əsrlər boyu müstəmləkə şəraitində yaşamış, lakin mənəvi sərhədlərini məhz dilinin qüdrəti hesabına qoruyub saxlamış bir xalq üçün dilin saflığı tarixi yaddaşın toxunulmazlığı deməkdir. Prezidentin qeyd etdiyi kimi, yad kəlmələrin leksikonumuza "damcı-damcı" sızması milli kimliyimizi sarsıdan, dövlətçilik sütunlarını zəifləden görünməz bir təhdiddir.**

# Ana dili milli sərvətimizdir

Azərbaycan dili milli varlığımızın əsas sütunudur. Dilimizin qorunması və inkişafı dövlət qayğısı ilə əhatə olunub. Dünya şöhrətli siyasi xadim, Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərliyi illərində ana dilinin qorunması və dövlət dili kimi tanınması istiqamətində misilsiz xidmətlər göstərib. Bu gün böyük fəxarət hissi ilə qeyd edə bilərik ki, ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi və beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmlənməsi məhz Ulu Öndərin məqsədyönlü və düşünülmüş dil siyasətinin nəticəsidir. Bu siyasətin əsası hələ 1969-cu ildə qoyulub. Həmin ildə Heydər Əliyev Bakı Dövlət Universitetinin (o zamankı Azərbaycan Dövlət Universitetinin) 50 illik yubileyində Azərbaycan dilində çıxış edib. Bu çıxış böyük rezonans doğurub, ana dilinə münasibətdə yeni mərhələnin başlanğıcı olub.

Sonralar Ulu Öndər bu barədə bildirirdi: "Xatirimdədir, Universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu, təəccüb doğurdu, nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlığını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər. Mən isə onlara dedim ki, burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu mənim ana dilimdir və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq da deyildir. Ana dilini bilməmək isə, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir".

Dahi şəxsiyyətin uzaqgörən və prinsipial mövqeyi nəticəsində ana dilinin inkişafı sahəsində mühüm qərarlar qəbul edildi. 1978-ci il aprelin 27-də Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit olunması Ulu Öndərin xalq qarşısında müstəsna xidmətlərindən biri idi. Sovet totalitar rejimi şəraitində belə bir addım olduqca cəsarətli qərar sayılırdı. Bu dövrdə ittifaqa daxil olan respublikaların müstəqil iradəsi məhdud idi və milli dillərin sıxışdırılması prosesi güclənirdi. Bu məsələnin gündəmə gətirilməsi ciddi risk tələb edirdi. Lakin böyük siyasi xadim ana dili ilə bağlı qətiyyətli mövqe nümayiş etdirərək "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir" müddəasının Konstitusiyada əksini tapmasına nail oldu.

Beləliklə, ardıcıl və prinsipial fəaliyyət nəticəsində Konstitusiyada Azərbaycan dilinə dövlət dili statusu verildi, gələcək müstəqil dövlətçiliyin mühüm rəmzlərindən biri qorundu və möhkəmləndirildi.

Ana dilinin fəal təbliğatçısı kimi çıxış edən Heydər Əliyev ölkəyə rəhbərliyinin ikinci mərhələsində də milli dil məsələsinə xüsusi həssaslıqla yanaşdı. 1994-cü ilin noyabrında Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş mərasimdəki çıxışında ana dilinin qorunmasını nəsillər qarşısında mühüm vəzifə kimi müəyyənləşdirdi: "Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz ana dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Ancaq, əgər keçmişə nəzər salsaq, bu gün zəngin, yüksək mədəni səviyyədə olan, çox geniş söz ehtiyatına malik olan ədəbi, mədəni dilimiz həmişə belə olmamışdır. Onu yaradanlar olub, elmi əsasını quranlar olub, inkişaf etdirənlər olub. Bu, müstəqil Azərbaycanın, Azərbaycan xalqınm ən böyük milli sərvətidir. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur".

Ulu Öndərin qətiyyətli iradəsi sayəsində 1995-ci ildə qəbul edilən müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında da bu mövqe öz əksini tapdı. 12 noyabr 1995-ci ildə qəbul olunmuş Əsas Qanunun 21-ci maddəsində Azərbaycan dili dövlət dili kimi təsbit edildi: "Azərbaycan Respublikasının Dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".

Ulu Öndər 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı. Bu fərmanla Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradıldı. 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun qəbul edildi. Bu sənədlər dilimizin qorunması, tətbiqi və inkişafı istiqamətində mühüm mərhələ oldu. Bu ardıcıl addımlar müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi, formalaşması və möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət daşıyırdı.

Ümummilli Lider Azərbaycan dilinin qorunması ilə bağlı siyasətini sonralar imzaladığı digər fərmanlarla, qanunlarla daha da möhkəmlətdi. Bu təşəbbüslər ana dilimizin tətbiqi işinin daha mükəmməl səviyyədə həyata keçirilməsinə stimul verdi. "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərman ana dilinə sevginin bariz ifadəsi oldu. 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi dilimizin dövlət dili kimi işlədilməsi, tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addım olub. Heydər Əliyevin tövsiyələri əsasında belə bir qanunun hazırlanması, onun dövlət dili səviyyəsində inkişaf təminatının yaradılması ana dili haqqında ardıcıl siyasətin davam etdirilməsidir.

Bu sənədlər Ümummilli Lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir. Hazırda bu ənənələri Prezident İlham Əliyev uğurla davam etdirməkdədir. "Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik" söyləyən Prezident İlham Əliyevin fəaliyyəti dövründə ana dilinin dövlət dili statusu qorunub və onun inkişafı yüksək səviyyədə təmin edilib.

Dövlət başçımızın ana dilinin dövlət dili kimi geniş, maneəsiz işləkliyi üçün göstərdiyi siyasi, milli iradə, gördüyü məqsədyönlü işlər Azərbaycan dilinin nüfuzunun yüksəlməsinə və türk dilləri arasında mötəbər mövqe qazanmasına xidmət edir. Ölkə başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür. Bu sənədlər ana dilimizin müasir dövrün tələbləri şəraitində qorunması, saflaşdırılması kimi vacib, konseptual məsələləri qarşıya vəzifə qoyub. Bütün bunlar onu bir daha göstərir ki, Ulu Öndər Heydər Əliyevin ana dilinə qayğı siyasəti bu gün də uğurla davam və inkişaf etdirilir.

Azərbaycançılıq milli ideologiyamızın əsaslarının ümumi təhsil müəssisələrinin aşağı siniflərindən başlayraq şagirdlərə təlqin olunmasının vacibliyini bildirən Ümummilli Lider bu konsepsiyanın əsasında dövlət dilinə xüsusi diqqətin dayanmalı olduğunu qeyd edirdi: "Məktəblərdə Azərbaycan dilinin tədrisinə mühüm diqqət yetirilməlidir. Fəxr edə bilərik ki, bizim zəngin, böyük söz ehtiyatına malik olan Azərbaycan dilimiz var. Azərbaycan dili söz ehtiyatına görə, fikri ifadə etmək imkanlarına görə çox zəngindir. Ancaq lazımdır ki, Azərbaycan dilinin bu zənginliyi, bu böyük imkanları orta məktəbdə ilk təhsilə başlayan hər bir gənc tərəfindən mənimsənilə bilsin və gənclərimiz artıq orta məktəbdə öz dilini - ədəbi dilini, mədəni dilini yaxşı mənimsəsin, öz dilində yaxşı danışa bilsin, öz dilində fikrini ifadə edə bilsin".

Ümummilli Lider xarici ölkələrdə təhsil alan azərbaycanlı gəncləri getdikləri ölkələrin dilini öyrənərkən ana dilini unutmamağa çağırırdı: "Öz ana dilinizi heç bir başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şey ola bilməz". Ulu Öndər tövsiyə edirdi ki, "hər bir Azərbaycan gənci birinci növbədə, gərək öz dilini, ana dilini bilsin. Çünki bu, anasının dilidir. Bu, ölkənin dövlət dilidir və gənc bu dildə təhsil alsın, bu dildə yazsın, bu dildə oxusun. Məhz bu dildə Azərbaycan xalqının zəngin tarixini, zəngin mədəniyyətini, əsrlər boyu yaranmış böyük irsini öyrənə bilsin".

Ümummilli Lider gənc nəslin ana dilini düzgün, hərtərəfli və elmi əsaslar zəminində mənimsəməsini tövsiyə edirdi: "Öz dilini sevməyən adam öz tarixini bilə bilməz. Ana dilini bilməyən gənc Nizamini oxuya bilməz. Füzulini oxuya bilməz. Cəlil Məmmədquluzadəni oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, bizim mədəniyyətimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaq".

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin milli dilin təbliği və qorunması sahəsində zəngin və çoxşaxəli fəaliyyəti bu gün də aktual və həyati əhəmiyyət daşıyır: "Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dovləl dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik".

Ulu Öndərin bu fikirləri isə hər birimiz üçün bir vətəndaşlıq borcudur: "Biz dünyada öz dilimizlə tək yaşayırıq. Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir... Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur".

**Beləliklə də Ulu Öndər Heydər Əliyev həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan dilinin dövlət dili kimi işlək istifadəsi, saflaşması və zənginləşməsi üçün ciddi strateji xəttin təməlini qoyub. Ümummilli Liderin ana dilinin yaşaması üçün ortaya qoyduğu cəsarət, bu yolda verilən qərarlar, imzalanan sənədlər, dilimizin gözəlliyi barədə səsləndirdiyi müdrik fikirlər, misilsiz xidmətləri xalqımızın yaddaşında əbədi yaşayacaq.**

**Oruc MUSTAFAYEV**

# Ana dilinin saflığı və dövlətçilik maraqları:

## Azərbaycan dili strateji amil kimi

Qloballaşmanın və rəqəmsal transformasiyaların fonunda dilimizin hər hansı başqa dilin kölgəsinə düşməsinə imkan verməmək, 50 milyonluq bir millətin ortaq mənəvi bütövlüyünü qorumaq bu gün hər bir vətəndaşın, xüsusilə də ziyalıların qarşısında duran ali vəzifədir.

**Bəs dilimizin saflığını qorumaq üçün elmi və ictimai müstəvidə hansı addımlar atılmalıdır?**

Dilçi-türkoloq, Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov "Azərbaycan müəllimi"nə açıqlamasında bildirib ki, hələ sovet dövründə Ümummilli Liderimiz Heydər Əliyev ana dilinin - ədəbi dilimizin qorunması üçün misilsiz xidmət göstərib və bu sahədə kifayət qədər ciddi təcrübə qazanılıb: "Cənab Prezidentin söylədiyi kimi, dil dövlətçiliyin atributlarından biri, hətta birincisidir. Amma burada söhbət ondan gedir ki, o dövlət bu millətin öz milli dövlətidir. Əgər bu yoxdursa, istər-istəməz onun ədəbi dili çox ciddi təzyiqlərə məruz qalır. Bu baxımdan Azərbaycanın bəxti gətirib, çünki sovet dövründə Ümummilli Liderimiz ana dilinin qorunması üçün çox zəhmət çəkib. Doğrudur, ədəbi dilimizi uzun müddət daha çox yazıçılarımız qoruyublar. Sovet dövründə dövlət idarələrində Azərbaycan dilinin işlənməsi o qədər də miqyaslı deyildi. Məsələn, hərbi sahədə, ümumiyyətlə, istifadə olunmurdu. Odur ki, burada qazanılan müəyyən nailiyyətlər indi müstəqilliyin inkişafı ilə bağlı daha da cəsarətli şəkildə ortaya qoyulur və dövlət öz dilinin müdafiəsində çox möhkəm dayanır. Cənab Prezidentin dövlətin dili qoruması ilə bağlı fikirləri çox təsirli və real səslənir, gerçək bir müddəadır".

**Azərbaycan dilinin üstünlüklərindən biri də odur ki...**

Akademikin sözlərinə görə, dil o zaman qorunur və inkişaf edir ki, ondan ictimai şüurun müxtəlif sahələrində istifadə olunur: "Bu gün Azərbaycan dilinin üstünlüklərindən biri də odur ki, Azərbaycan dövləti bu dili qoruyur və onun imkanlarını genişləndirir. Azərbaycan dilinin inkişafını təmin etmək üçün çox sayda sənədlər qəbul olunub. Bu inkişaf təmin olunmasa, dili qorumaq anlayışı da kifayət qədər ciddi səslənməz. Çünki dil o zaman qorunur ki, o, inkişaf edir və ictimai şüurun müxtəlif sahələrində istifadə olunur. Dil o dildə danışan insanların intellektual enerjisi ilə irəli gedə bilir.

İndi də, əlbəttə, dilimizə imperialist dillərin təsiri olacaq. Onu da nəzərə almalıyıq ki, uzun müddət Azərbaycan dili ərəb və fars dillərinin çox ciddi təsirlərinə məruz qalıb. Doğrudur, İslam dinini qəbul etdiyimizə görə ərəb mənşəli sözlərin dilimizə keçməsi təbii proses sayılırdı. Qurani-Kərimdən gələn anlayışları qəbul etmək zəruri idi. Amma bir faktı deyim ki, İslam dini yeni qəbul olunan əsrlərdə Yusif Xas Hacib Balasaqunlu tərəfindən yazılan "Qutadğu Bilig" adlı əsərdə ərəb-fars sözləri, demək olar ki, yoxdur. Halbuki əsər bütövlükdə İslam dininin təbliğinə, İslam hüququna, mənəviyyatına, idarəçiliyinə, əxlaqına həsr olunub. Terminlərin hamısı türkcədir.

Deməli, dərhal aydın olur ki, orta əsrlər boyu bir çox sözlər ərəb və fars dilini yamsılamağın təsiri altında dilimizə daxil olub".

N.Cəfərov qeyd edir ki, əsrlər boyunca yad sözlərin milliləşdirilməsi, türk sözləri ilə əvəz olunması uğrunda mübarizələr getsə də, bu mübarizələr hər zaman uğurlu olmayıb: "Dilimizdə olan xeyli sayda ərəb-fars sözləri ona uzun müddət ağırlıq yaradıb. Ziyalılarımız da böyük çətinlik çəkiblər. Bu gün də dövlət başçısının dediyi kimi, xarici sözlərin axını mümkündür və Avropa mənşəli sözlər bəzən yersiz və lazımsız şəkildə dilimizə daxil olur. Təbii ki, burada söhbət beynəlxalq terminlərdən getmir, onlardan istifadə mühümdür. Lakin yerli-yersiz yad sözlərin işlədilməsi dil qüsurudur.

Ölkə başçısının söylədiyi kimi, Azərbaycan xalqı 50 milyondan artıq bir xalqdır və böyük bir coğrafiyada yaşayır. Amma azərbaycanlıların yaşadıqları bəzi ölkələrdə Azərbaycan məktəbləri yoxdur. Bu isə dili həmin yerlərdə məişət dili səviyyəsinə endirmək təhlükəsi yaradır. Ona görə də bütün Azərbaycan ziyalıları çalışmalıdırlar ki, bu hüquqların pozulmasının qarşısı alınsın, azərbaycanlıların ana dilində təhsil alması və işləməsi təmin olunsun. Çünki burada bir neçə min yox, milyonlarla insandan söhbət gedir.

**"Ana dili öz işini görə bilirsə, başqa dilə müraciət etməyə ehtiyac yoxdur"**

Azərbaycan dilinin qarşısında dayanan ən böyük təhlükələrdən də danışan N.Cəfərov qeyd edir ki, Azərbaycan dilinə ən böyük təhlükə müəyyən məqamlarda intellektin, düşüncə mədəniyyətinin aşağı düşməsidir: "Harada düşüncə mədəniyyəti, intellektual səviyyə yüksəkdirsə, ana dilinə qarşı təhlükə də ola bilməz. Azərbaycanda biz dilimiz üçün belə bir təhlükə hiss etmirik. Amma əgər böyük intellekt sahibləri öz işlərində Azərbaycan dilindən qabaq ingilis və ya rus dilini üstün tutsalar, onda intellekt axını baş verəcək və bu, dilimizin xeyrinə olmayacaq. Əlbəttə, hər bir azərbaycanlı beynəlxalq dilləri bilməli və istifadə etməlidir. Amma heç də hər yerdə yox. Ana dili öz işini görə bilirsə, başqa dilə müraciət etməyə ehtiyac yoxdur".

**"Jurnalistika dilin ön cəbhəsindədir..."**

Nizami Cəfərov ana dilinin saflığının qorunması məsələsində jurnalistlərin rolundan da danışıb. O bildirib ki, publisistika və jurnalistika dilin ön cəbhəsindədir: "Dövlət dilinin inkişafı üçün hər cür imkanlar nəzərə alınır. Azərbaycanlı olan hər bir kəs Azərbaycan dilinin dayağıdır. Təbii ki, burada söhbət Azərbaycan xalqının məişət dilindən gedir. Lakin Azərbaycan ziyalısı, dilçi alimlər, yazıçılar, ümumiyyətlə, elm adamları, intellektual şəxslər Azərbaycan ədəbi dilinin dayağıdır. Burada balansı qorumaq: həm beynəlxalq dilləri yaxşı mənimsəmək, həm də ana dilini dövlət dili səviyyəsində dərindən bilmək, onun imkanlarını genişləndirmək, intellektinlə dilə ruh vermək çox vacibdir.

Cənab Prezident jurnalistlərə, mətbuat işçilərinə dilin saflığı ilə bağlı tez-tez müraciət edir və bu müraciət çox yerindədir. Çünki publisistika və jurnalistika dilin ön cəbhəsindədir. Jurnalist elə yazmalı, elə danışmalıdır ki, xalq üçün aydın olsun. Əks halda həm ümumxalq dilinə, həm də ədəbi dilə zərər gələcək.

**"Prezidentin çıxışı ziyalılara xəbərdarlıqdır"**

"Prezident İlham Əliyevin dil ilə bağlı narahatlığını ifadə etməsi, bunu həm elmi, həm publisistik mühitə, həm də birbaşa xalq kütlələrinə çatdırması bütün dünya azərbaycanlıları üçün aydın bir xəbərdarlıqdır. Xüsusilə ziyalılara xəbərdarlıqdır ki, xalqımızın və dövlətimizin ən möhtəşəm dayaqlarından biri olan dilimizlə bağlı məsələlərdə biz məsuliyyətli olmalıyıq", - deyə akademik qeyd edib.

**Mərziyyə KAZIMZADƏ**

# Yeni dövr gənclərin qarşısında mühüm vəzifələr qoyur

## Elm və təhsil nazirinin müavini Firudin Qurbanov könüllülərlə görüşüb






**Fevralın 18-də “Regional İnkişaf” İctimai Birliyinin paytaxt və regionları təmsil edən könüllüləri ilə elm və təhsil nazirinin müavini Firudin Qurbanovun görüşü keçirilib.**

“Mentorla görüş” layihəsi çərçivəsində keçirilən görüşdə nazir müavini ölkədə təhsil sahəsində aparılan islahatlar, 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatlarından sonra gənclərin üzərinə düşən yeni vəzifələr barədə məlumat verib. O, XXI əsrin çağırışlarına uyğun olaraq gənclərin yalnız bilik deyil, yaradıcı təfəkkür, tənqidi düşüncə, ünsiyyət və texnologiyalardan səmərəli istifadə bacarıqlarına yiyələnməsinin vacib olduğunu vurğulayıb.

Nazir müavini idman, musiqi və incəsənətlə məşğul olan gənclərin təhsil nailiyyətlərinin daha yüksək olduğunu, İkinci Qarabağ müharibəsi zamanı şəhid olan təhsil işçiləri və məktəblilərin heç zaman unudulmayacağını qeyd edib. Gənclərə vətənin müdafiəsi və qarşıya qoyulan vəzifələrə həmişə hazır olmağın əhəmiyyətini xatırladıb.

Görüşdə karyera inkişafı, uğurlu insanların motivasiya mənbəyi və şəxsi məsuliyyətin əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb. Nazir müavini gənclərə dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil imkanlarından yararlanmağın vacibliyini də vurğulayıb.

Sonda iştirakçıların suallarını cavablandıran nazir müavini gənclərə sevdikləri işlə məşğul olmağı arzu edib.

# “Gələcək üçün bacarıqlar” layihəsinin əhatə dairəsi genişləndirilir

**Fevralın 19-da Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “İnnovasiyalar Mərkəzi” tərəfindən icra olunan “Gələcək üçün bacarıqlar” layihəsinin IV “TUSİ” inkubasiya proqramının “Demo Day” tədbiri təşkil edilib.**









Məqsəd innovasiya sahəsində kadr potensialının gücləndirilməsi, təhsildə innovativ fəaliyyətin təşviqidir. Eyni zamanda, tələbələrin innovativ ideyalarının inkişafına şərait yaradılması və onların ixtiraçılıq, startap fəaliyyətinə istiqamətləndirilməsi əsas prioritetlərdəndir.

Tədbirdə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, bp-nin Xəzər regionu üzrə kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, ali təhsil müəssisələrinin rektorları iştirak ediblər.

Tədbir çərçivəsində Dövlət Agentliyi ilə layihəyə yeni qoşulan Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Dövlət Gömrük Komitəsinin Akademiyası arasında “Universitetlərdə innovasiya mühitinin formalaşdırılması və inkişaf etdirilməsi sahəsində əməkdaşlığa dair” Anlaşma Memorandumu imzalanıb.

Sonra qonaqlar startap komandalarının layihələri ilə tanış olublar.

Tədbirdə rəsmilərin çıxışları dinlənilib, layihə çərçivəsində görülmüş işləri əks etdirən videoçarx nümayiş etdirilib.

Çıxışında XXI əsrin bacarıq və səriştələrinə toxunan elm və təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, hazırda yaradıcı şəxslərin yaradıcılıq fəaliyyəti müasir sosial inkişafın əsas mənbəyidir. Buna görə də geniş mənada “yaradıcılıq bu gün inkişaf mexanizmi” və ya “inkişafa aparan qarşılıqlı təsir kimi” qəbul edilir. Bu gün dinamizm, sosial və elmi-texniki inkişafın uğuru yalnız yaradıcı şəxslərin yaradıcılıq fəaliyyətinin səmərəliliyindən asılıdır.

Nazir müavini dəyişən dünyada müasir problemlərin yalnız çox hazırlıqlı təhsilalanlar tərəfindən həll ediləcəyini qeyd edib və ideyaların — innovasiyalara çevrilməsi üçün xüsusi innovasiya məkanının formalaşdırılmasının zərurətini vurğulayıb.

Qeyd edək ki, 2021-ci ildən bu günədək layihə çərçivəsində 15 ali təhsil müəssisəsi ilə əməkdaşlıq qurulub, 3 mindən çox tələbə tərəfindən 300-dən artıq startap ideyası təqdim olunub. Universitetlərdə hazırlanmış 130-dan çox mentorun dəstəyi ilə 29 startap komandası formalaşdırılıb və “Demo Day” tədbirlərində layihələri təqdim edilib.

# Peşə təhsilinin əhatəliliyi genişlənib

## “Peşə təhsili üzrə ixtisasların təsnifatı”nın yenilənməsi məqsədilə yaradılmış İşçi qrupun ilk iclası



**Elm və Təhsil Nazirliyində “Peşə təhsili üzrə ixtisasların təsnifatı”nın yenilənməsi məqsədilə yaradılmış İşçi qrupun ilk iclası keçirilib. Elm və təhsil nazirinin müavini, Komissiyanın sədri Kənan Kərimzadənin rəhbərliyi ilə keçirilən iclasda Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Turizm Agentliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyinin nümayəndələri iştirak ediblər.**

Açılış nitqi ilə çıxış edən elm və təhsil nazirinin müavini Kənan Kərimzadə son illərdə peşə təhsili sahəsinə ali səviyyədə göstərilən diqqət, aparılan sistemli islahatlar və nəticədə peşə təhsilinin əhatəliliyinin genişlənməsi ilə bağlı məlumatları iştirakçıların diqqətinə çatdırıb. Yerli və qlobal əmək bazarında baş verən dinamik dəyişikliklərin və peşə ixtisaslı kadr hazırlığının da bu dəyişikliklərə uyğun olaraq təkmilləşdirilməsi zərurətindən danışan nazir müavini mövcud “Peşə təhsili üzrə ixtisasların təsnifatı” sənədinin də yenilənməsinin vacib olduğunu qeyd edib.

Daha sonra təqdimatla çıxış edən nazirliyin Elm, ali və peşə təhsili şöbəsinin sektor müdiri Səbinə Babayeva hazırda peşə təhsili müəssisələrinə tələbə qəbulu üçün baza sənəd olan “Peşə təhsili üzrə ixtisasların təsnifatı”nın strukturu, təsnifatın yenilənməsini zəruri edən faktorlar və yeni təsnifat layihəsi ilə bağlı görülmüş işlərdən danışıb. Səbinə Babayeva İşçi qrupun üzvlərinə yeni təsnifat layihəsini təqdim edərək layihənin hazırlanmasında əsas götürülmüş prinsiplər, yanaşmalar və təklif olunan struktur, eləcə də İşçi qrupun üzvlərindən gözləntilər barədə məlumat verib.

Daha sonra aidiyyəti qurumların nümayəndələrinin təklifləri dinlənilib.

İclas müzakirə formatında davam etdirilib.

# “Rəqəmsal məktəb” təhsildə rəqəmsal transformasiyanın fundamental mərhələsidir



**Dünyamız sürətlə rəqəmsallaşır və texnologiya həyatımızın bütün sahələrinə inteqrasiya olunur. Təhsil də bu dəyişimin mərkəzindədir. Bu günün şagirdləri yalnız bilik əldə etmir, həm də yaradıcı düşüncə, problem həlletmə və əməkdaşlıq bacarıqlarını inkişaf etdirirlər.**

Təhsildə rəqəmsal transformasiya ənənəvi tədris modelinin müasir informasiya-kommunikasiya texnologiyaları ilə zənginləşdirilməsi, idarəetmə və öyrənmə prosesinin daha effektiv, şəffaf və əlçatan formada təşkili deməkdir. Bu transformasiyanın əsas alətlərindən biri də “Rəqəmsal məktəb” platformasıdır. Tədris prosesini rəqəmsal mühitdə idarə edən, öyrənmə, ünsiyyət və əməkdaşlığı eyni yerdə vahid şəkildə birləşdirən innovativ sistem olan adıçəkilən platforma şagirdlərin dərslərini daha interaktiv və əlçatan edir, valideynlərə övladlarının təhsil göstəricilərini izləmək imkanı verir, müəllimlərə dərs planlamasını effektiv idarə etməyə şərait yaradır.

Mövzu ilə bağlı “Azərbaycan müəllimi”nə danışan Milli Məclisin deputatı Mehriban Vəliyeva bildirib ki, müasir dünya artıq rəqəmsal transformasiya mərhələsini geridə qoyaraq süni intellekt dövrünə daxil olur. Qlobal iqtisadiyyat, idarəetmə və əmək bazarı sürətlə dəyişir. Bu dəyişikliklərin mərkəzində isə təhsil dayanır. Çünki gələcəyin insan kapitalı məhz bu gün məktəbdə formalaşır.

Rəqəmsallaşma istiqamətində atılan addımlar təhsilin də struktur və məzmun baxımından yenilənməsini zəruri edir

Deputatın fikrincə, Azərbaycan da bu qlobal trendlərdən kənarda deyil. Son illər ölkədə rəqəmsallaşma istiqamətində atılan addımlar təhsilin də struktur və məzmun baxımından yenilənməsini zəruri edir: “Rəqəmsal məktəb” platformasının tətbiqi bu transformasiyanın əsas istiqamətlərindən biri kimi çıxış edir. Hazırda Bakı şəhərində yerləşən ümumi təhsil müəssisələrini əhatə edən “Rəqəmsal məktəb” platforması təhsil sistemində müasir texnologiyaların tətbiqi ilə yanaşı, tədris və idarəetmə proseslərini təkmilləşdirmək, həmçinin təhsildə şəffaflığı artırmaq məqsədi daşıyır. Platformanın üstünlüklərindən biri də odur ki, məktəbdəki tədris prosesinin bütün iştirakçıları - müəllimlər, şagirdlər və valideynlər bir mərkəzdə qarşılıqlı əlaqə yarada bilirlər”.

### Beynəlxalq təcrübə göstərir ki…

Mehriban Vəliyevanın sözlərinə görə, beynəlxalq təcrübə göstərir ki, süni intellektin təhsildə effektiv tətbiqi üçün ilkin şərt güclü rəqəmsal infrastruktur və sistemli məlumat bazasıdır. Təsadüfi deyil ki, UNESCO və OECD təhsildə süni intellektin tətbiqini prioritet istiqamət kimi müəyyənləşdirərkən, ilk növbədə, rəqəmsal transformasiyanın vacibliyini vurğulayır: “Süni intellekt məlumatla işləyir. Məlumat isə yalnız rəqəmsal mühitdə toplanır, strukturlaşdırılır və təhlil olunur. “Rəqəmsal məktəb” platformasında diqqətçəkən ən maraqlı məqamlar ondan ibarətdir ki, burada şagird nailiyyətləri sistemli şəkildə qeyd olunur, davamiyyət dinamikası izlənilir, qiymətləndirmə nəticələri analiz edilir ki, bu da həmçinin təlim prosesinin effektivliyini artırır. Əldə olunan məlumatlar gələcəkdə adaptiv öyrənmə sistemlərinin qurulmasına, risk qrupunda olan şagirdlərin erkən aşkarlanmasına və fərdiləşdirilmiş tədris modellərinin tətbiqinə imkan yaradır”.

Deputat bildirir ki, rəqəmsallaşma başqa sözlə, süni intellekt üçün texniki baza, süni intellekt isə rəqəmsallaşmanın növbəti mərhələsidir: “Ölkə başçısı İlham Əliyev “Azərbaycanın yeni rəqəmsal arxitekturası” adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə ölkənin rəqəmsal gələcəyinin sistemli şəkildə qurulmasının vacibliyini xüsusi vurğulamışdır. Dövlət başçısının çıxışında süni intellektin iqtisadi inkişaf, idarəetmə səmərəliliyi və insan kapitalının gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıdığı qeyd olunmuşdur.

Bu yanaşma təhsil sektoruna da birbaşa aiddir. Çünki süni intellekt əsaslı iqtisadiyyat üçün analitik düşünən, rəqəmsal bacarıqlara malik,innovativ və çevik qərar verə bilən gənclər yetişdirilməlidir”.

### Rəqəmsal mühitdə təhsil alan şagirdlər süni intellekt və innovasiya əsaslı iqtisadiyyat üçün daha hazırlıqlı olurlar

Mehriban Vəliyeva söyləyir ki, təhsil sistemində rəqəmsal platformaların tətbiqi bu strateji hədəflərə çatmaq üçün ilkin mərhələ rolunu oynayır. Rəqəmsal transformasiya təhsil prosesində aşağıda qeyd olunan bir neçə əsas istiqamətdə keyfiyyət dəyişikliyi yaradır:

*1. İdarəetmədə səmərəlilik*

Məlumat əsaslı qərarvermə mexanizmləri məktəb və sistem səviyyəsində planlaşdırmanı daha obyektiv edir.

*2. Fərdiləşdirilmiş təlim*

Hər bir şagirdin öyrənmə tempi və ehtiyacları nəzərə alınaraq tədris strategiyaları qurula bilər.

*3. Şəffaflıq və hesabatlılıq*

Valideyn-məktəb-müəllim əlaqəsi güclənir, nəticələr real vaxt rejimində izlənilir.

*4. Gələcək bacarıqların formalaşdırılması*

Rəqəmsal mühitdə təhsil alan şagirdlər süni intellekt və innovasiya əsaslı iqtisadiyyat üçün daha hazırlıqlı olurlar.

Deputatın sözlərinə görə, rəqəmsallaşma prosesinə balanslı və məsuliyyətli yanaşmaq vacibdir. Əks halda müəyyən risklər- rəqəmsal bərabərsizlik,rəqəmsal savadlılıq çatışmazlığı, məlumat təhlükəsizliyi, texnologiyanın məqsədə çevrilməsi və s. yarana bilər: “Azərbaycan üçün optimal model mərhələli və inklüziv rəqəmsal keçiddir. Bu model infrastrukturun ölkə üzrə bərabər inkişafını, müəllimlərin rəqəmsal kompetensiyalarının gücləndirilməsini, etik və hüquqi çərçivənin formalaşdırılmasını, süni intellekt tətbiqlərinin mərhələli inteqrasiyasını nəzərdə tutmalıdır. Düşünürəm ki, “Rəqəmsal məktəb” platforması bu transformasiyanın ilkin və fundamental mərhələsidir”.

**Samirə KƏRİMOVA**

# Sinifdə də, səngərdə də
# QƏHRƏMAN MÜƏLLİM

Burada hər kəsin öz işi var. Kimi nişan alıb hazır dayanıb, kimisi silahları döyüşə hazırlıq vəziyyətinə gətirməklə məşğuldur. Minaları quraşdıran kim, yaralıları döyüş meydanından çıxarmağa çalışan kim, yaralıya ilk tibbi yardım göstərən, sarğı qoyan kim... Sinif sinif deyil, sanki "döyüş" meydanıdır. Hər biri 62 yaşlı müəllim-komandir, polkovnik-leytenant Azər Bağırlının verdiyi tapşırıqların öhdəsindən gəlməyə çalışır. Bakıdakı 158 nömrəli tam orta məktəbin X sinif şagirdləri Çağırışaqədərki hazırlıq dərsindədirlər.





## Qarabağ döyüşçüsü çağırışaqədərki hazırlıq müəllimi Azər Bağırlı hər dərsi təlim kimi keçir





### Çağırışaqədərki hazırlıq dərsinin "çağrılmamış qonaqları"

Əslində, cədvələ uyğun olaraq X sinif şagirdlərinin dərsi olsa da, VIII, IX, XI siniflərdən də şagirdlər var. Azər müəllim deyir ki, onların hər dərsi belədir. Məktəbin şagirdləri hər fürsətdə onun dərsində iştirak etməkdən zövq alırlar. Bu dərsdə də XI sinifdən Aysu Amini, IX sinif şagirdləri Hüseyn Məmmədzadə və Cavid Atayi iştirak edirlər.

Azər müəllimin fikrincə, dərsləri ona görə sevilir ki, dərsdən çox təlimə bənzəyir: "Tibbi hazırlıq keçirik. Proqramımızda yaralıya ilk tibbi yardım göstərilməsi, zəhərli zonadan təxliyə kimi mövzular salınıb. Bu mövzuları keçəndə əsgərdən nə tələb edilirsə, şagirdlərimizlə eyni tələbləri yerinə yetirməyə çalışırıq. Əleyhqazlarını taxırlar, xərəklərini götürüb əsgər yoldaşlarını təhlükəli zonadan, döyüş meydanından necə çıxaracaqlarını göstərirlər".

### 36 ilin müəllimi

Azər Bağırlı 36 ildir müəllimdir. Fəaliyyətinin nəticəsidir ki, məktəbin adı düz 27 ildir hərbi oyunlar, yarışlar, müsabiqələrdə qaliblər sırasında çəkilir.

Azər müəllim özü də Bakı məktəblisi olub. Yasamal rayonundakı 13 nömrəli tam orta məktəbdən məzun olandan sonra Azərbaycan Pedaqoji İnstitutunda oxuyub. "Gənclərin Çağırışaqədərki hazırlığı və fiziki tərbiyə" ixtisası üzrə 1989-cu ildə institutu bitirəndən sonra təyinat alıb və o vaxtdan 158 nömrəli tam orta məktəbin müəllimidir.

26 saat dərs yükünün öhdəsindən gəlməklə kifayətlənmir, şagirdlərinin hərbi sahəyə marağını inkişaf etdirmək üçün əlavə oyunlar, yarışlar keçirir, dərsdən əlavə saatlarda da onların suallarını cavablandırmağa çalışır.

Şagirdləri arasında idmanın da təbliğatçısıdır. Özü də idmaçıdır, cüdo üzrə IV dan qarakəmər ustasıdır. Sambo üzrə dünya çempionları yetişdirib. Əməkdar məşqçidir, "bədən tərbiyəsi və idman işçisi", "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi"dir.

Azər Bağırlı, sadəcə şagirdləri arasında yox, elə cəmiyyətdə də idmanın, sağlam həyat tərzinin təbliğatı ilə məşğuldur. Onun məqalələri, sağlamlıq, təhsil, idman sahələrində düşüncələri ölkə mətbuatında mütəmadi çap olunub.

Bu dəfə isə onun dərsi "Azərbaycan müəllimi"nin mövzusudur.

### Qarabağ müharibəsi veteranı

Ehtiyatda olan zabit kimi 1993-1994-cü illərdə Qarabağ müharibəsinin iştirakçısı olub. Yasamal taborunun komandiri olan Mirələkbər İbrahimovla I Qarabağ müharibəsində çiyin-çiyinə döyüşüblər: "Müharibəyə Yasamaldan 3 hərbi müəllim cəlb edilmişdik. Şəhid Mirələkbər İbrahimov 153, mən isə 158 nömrəli tam orta məktəblərdə hərbi rəhbər idik, o qəhrəmancasına şəhid olaraq məktəbə qayıda bilmədi, Şəhidlər xiyabanında dəfn olunub".

"Axırıncı döyüşümüz Füzulinin Şükürbəyli kəndi uğrunda olub", - deyən Azər müəllim II Qarabağ müharibəsində də iştirak etmək istəyib: "Ancaq yaşlıları axıra saxladılar, dedilər sizə ehtiyac yoxdur".

### Vətənpərvərlər yetişdirən müəllim

Azər müəllim vətənə döyüşçülər hazırlayıb: "30 il ərzində hazırladığım şagirdlər arasında qəhrəmanlıq göstərərək adını hərb tarixinə yazdıranlar var. Keçmiş şagirdlərimdən 28 nəfəri şəhid olub, eləsi var itkin düşüb. İki Milli Qəhrəman yetişdirmişəm".

Vətənpərvər nəslin yetişdirilməsi prosesinə indi qəhrəman yetirmələrini də cəlb edir: " II Qarabağ müharibəsində qəhrəmanlıq göstərib medalla geri qayıdanlarla görüşlər keçirir, şagirdlərimizə onları nümunə göstəririk".

Azər müəllimin yetirmələri arasında həyatını hərb sənəti ilə bağlayanlar da çoxdur: "Mübariz İbrahimov keçmiş şagirdimin əsgəri olub.".

İşlədiyi müddətdə müəllimlər də yetişdirib. 10-dan çox şagirdi onun yolunu davam etdirib, hazırda Çağırışaqədərki hazırlıq müəllimi kimi fəaliyyət göstərirlər.

Bəs indiki şagirdləri?

Azər Bağırlı onlarla da qürur duyur: ""Şahin" hərbi-idman oyunlarında məktəbimizi təmsil edən komandanın kapitanı Ağa Məmmədov silahı ən tez söküb yığan şagirdimdir. Ağanın atası da şagirdim olub, indi polkovnik-leytenantdır. Ümumiyyətlə, avtomatın sökülüb-yığılmasında ölkə üzrə ən yaxşı nəticəni yetirmələrim göstərib".







Şagird Ağa Məmmədov VIII sinifdən Azər müəllimin dərslərində iştirak edir: "Atam hərbçidir. Hərbçi olsam, snayperçi olmaq istəyərəm. Tarixi sevirəm, III ixtisas qrupuna hazırlaşıram. Gələcəkdə Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasında, yaxud Polis Akademiyasında oxumaq istəyirəm".

Fərəc Abbasov da X sinif şagirdidir: "Avtomatımız, piyada əleyhinə, tank əleyhinə minalarımız, tapançalarımız, əl qumbaralarımız var. Dərsimiz çox maraqlı keçir. Silah söküb yığır, atış edirik. Azər müəllim çox yaxşı dərs başa salır. Onun dərsində həm yaxşı öyrənirəm, həm də öyrəndiklərimi tətbiq edirəm. Hərbi hazırlıq dərsimizdən, sözün əsl mənasında, zövq alırıq".

Müəllimi də Fərəcin fəaliyyətindən zövq alır: "Onu özünə köməkçi təyin etmişəm".

### Şagirdlər hərbi hazırlıq dərsini çox sevirlər

XI sinif şagirdi Aysu Amini deyir ki, ona tibbi yardım dərsləri daha maraqlıdır. "Silahları da öyrənirəm.".

X sinif şagirdi Rafael Qardaşov Azərbaycan silahlarını sadalayır: "Yalquzaq", "İstiqlal", "Mübariz", "İnam", "Zəfər", "Həzi"...

Fərhad Davudzadə də hərbi hazırlıq dərsini çox sevir: "Mənim də snayper silahlarına böyük marağım var. Snayperçi dəqiq olmalı, hədəfi dəqiq seçməlidir. Mən də dəqiqəm, riyaziyyatı sevirəm. Amma gələcəkdə həkim olmaq istəyirəm".

### Çağırışaqədərki hazırlıq dərsində düzgün yıxılmağı öyrənirlər

Azər müəllim dərsinə həm də bir idmançı nəzəri ilə baxır. Hər şeyə hazırlıqlı olmağı öyrədir: "Elə hadisələr baş verir ki, təhlükədən yayınmaq olmur. Məsələn, yıxılmaqdan qaçmaq mümkün deyil, ona görə də onlara düzgün yıxılmağı öyrədirəm. Hər adamın ayağı sürüşə bilər, düzgün yıxılsalar, heç nə olmaz. Yıxılarkən əlləri yanlarda tam açmalı, çənə sinəyə sıxılmalıdır. Şagirdlərimə hər zaman idmanla məşğul olmağı da tövsiyə edirəm. Sağlamlıq üçün vacib şərtlərdən biri də budur. Elə yıxılanda da idmançılar xəsarətsiz ötüşə bilir. Onlarda onurğa sütunu gizləndiyindən yıxılanda onurğanın sınma halı azalır".

Azər Bağırlı bunu öz təcrübəsində də yaşayıb: "Şagirdlərimə də danışmışam. Mən institutda oxuyanda 16-cı mərtəbədən 8-ci mərtəbəyə yıxılmışam. Bizi Rusiyanın Saransk şəhərinə göndərmişdilər. Taxıl kombinatının tikintisinə cəlb edilən tələbələrdən biri də mən idim. Onda hələ 23 yaşım vardı. Amma idmançı olduğumdan düzgün yıxılmağı bilirdim. İnsan özünü itirməsə, həyəcanlanmasa, vəziyyəti idarə edə bilər".

### Şagirdləri üçün o, terror aktının qarşısını alan müəllimdir

Şagirdlərini sadəcə yıxılmağa yox, hər vəziyyətə hazırlayır. Hesab edir ki, kütləvi qırğın silahlarının istifadəsi zamanı nə etməli olduqlarını, terror baş verərsə, necə davranacaqlarını bilməlidirlər: "1987-ci ildə metroda terror aktının qarşısını almışam. Uşaq corablarının içərisində metroda partlayıcını qoyub qaçmaq istəyən terrorçunu müəyyən edib "Ulduz" stansiyasında o vaxtkı milisə təhvil verdim. Hadisəni şagirdlərimə olduğu kimi danışır, terrorçunu necə müəyyən etdiyimi, necə zərərsizləşdirdiyimi danışıram".

### Dərsdə qiymətləndirmə

Nəhayət, sıra gəldi qiymətləndirməyə. Bu dərsin "5" alanları kimlərdir?

Azər müəllim dərsdə tələbkar, qiymətləndirmədə "xəsis" müəllimdir: "Dərsə Dövlət Himni ilə başlayırıq, hər birimiz oxuyuruq. Himni bilməyənə qiymət yoxdur. Hər şagirdin dəftəri mütləq olmalıdır, yoxdursa, ümumiyyətlə, qiymət yazmıram. Dəftər şagirdin dərsdən xəbəri olduğunu göstərən faktordur".

Daha yaxşı qiymət üçün isə dərsdə xeyli çalışmaq lazımdır: "Qiymətlərim real qiymətlərdir. Heç kəsə güzəşt etmirəm. Öz qızım şagirdim olub, ona birinci yarımildə "2" yazmışdım. Bəzi uşaqlar tələbkar müəllimləri sevməsələr də, sonradan onlar da anlayırlar ki, bu, onların xeyrinədir".

Məhz müəlliminin tələbkarlığı sayəsində Aysu Amini "3" qiymətindən "5" qiymətinə gəlib çıxıb. Budəfəki sarğısı da "5"-ə layiqdir: "Çalışır ki, hərbi sirlərə yiyələnsin".

Azər müəllimdən daimi "5"i Fərəc alır. Bu dərsdə də qiymətləndirməsi yüksək oldu: "Fərəc məndən "5" alan şagirddir".

Ən yaxşı qiymətləndirmə isə şagirdlərinin 27 ildir rayon və ölkə səviyyəsində keçirilən yarışlarda qazandıqları uğurlardır: ""Şahin" idman oyunları 1995-ci ildən bərpa olunub. 1996-cı ildən məktəb bu oyunlara qoşulur və 1997-ci ildə ilk üçlükdə yer alıb. O vaxtdan bəri hər zaman bu yarışlarda fərqlənmişik".

### Ən maraqlı dərs

Azər Bağırlının maraqlı keçən dərsi başa çatır. Uşaqlar sinifdən heç ayrılmaq istəmirlər. Çünki Azər müəllim şagirdlərinin diqqətini çəkməyi, dərsinə maraq yaratmağı yaxşı bacarır: "İstəyirəm ki, şagirdlərimiz vətənpərvər böyüsünlər, hərbi cəhətdən hazırlıqlı olsunlar. Aşağı siniflərdən öyrənməyə başlasınlar".

**Ruhiyyə DAŞSALAHLI**
**Foto: Kənan QAFAROV**

# Uğur hekayəsi

## Dövlət Proqramı məzunları

Azərbaycan müasir tarixinin ən şərəfli günlərini yaşayır. Ölkəmizin 30 illik ən ağır və faciəli tarixini indi şərəflə və qürurla yaşadığımız günlər əvəz edir. Ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpası ilə Qarabağ torpaqlarında dinc həyat başlayıb, quruculuq-abadlıq işləri tam vüsəti ilə davam edir. Qürurverici məqam odur ki, əzəli torpaqlarımıza həm də təhsilimiz qayıdıb. Və təhsil quruculuğunda gənclər də xüsusi əzmlə və böyük ruh yüksəkliyi, sevinclə iştirak edir. Bunu həm də dünyanın nüfuzlu universitetlərindən məzun olan və Qarabağımızda yaşamağa və işləməyə qərar verən vətənpərvər gənclərimizin timsalında görmək olar. Onların arasında Qarabağ Universitetini seçənlər və bununla da ali təhsilimizə töhfə verən gənclərimiz də var.




## "Böyük Qayıdış"da təhsilin rolu strateji xarakter daşıyır

### *Qarabağ Universitetinin gənc müəllimi*

Haqqında bəhs etmək istədiyimiz gənclərdən biri də Dövlət Proqramı (DP) çərçivəsində Böyük Britaniyanın London Kral Kollecini (King's College London) "Təhsil idarəetməsi" ixtisası üzrə başa vuraraq Qarabağ Universitetində müəllimliyə başlayan Zeynəb Mehti qızı Əhmədzadədir. O, hazırda Böyük Qayıdışa öz müəllimlik missiyası ilə töhfə verir. DP məzununun işğaldan azad olunmuş ərazilərdə qurulan yeni universitetdə fəaliyyətə başlaması vətənpərvərlik və peşəkarlığın vəhdətidir. Müsahibimizlə daha yaxından tanış olaq:

- Mən Qarabağ Universitetində həm müəllim, həm də Qiymətləndirmə və dəstək şöbəsində baş mütəxəssis kimi fəaliyyət göstərirəm. Ali təhsil həyatına 2014-cü ildə Azərbaycan Dillər Universitetinin Filologiya və jurnalistika fakültəsində "İngilis dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə qəbul olaraq başlamışam. Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra müxtəlif təhsil müəssisələrində pedaqoji fəaliyyətə başladım və müəllimlik peşəsinin real sinif mühitində incəliklərini öyrənərək peşəkar inkişafımı davam etdirdim. Məktəb illərindən magistr təhsilimi xaricdə almaq əsas hədəflərimdən biri idi və bu arzumu reallaşdırdım. 2023-cü ildə Böyük Britaniyanın London Kral Kollecində "Təhsilin idarə edilməsi" (Education management) ixtisası üzrə magistr pilləsinə qəbul oldum və "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022—2026-cı illər üçün Dövlət Proqramı"nın dəstəyi ilə təhsilimi Londonda davam etdirdim. Təhsil aldığım müddətdə yarımştat (part-time) olaraq ingilis dili müəllimi kimi fəaliyyət göstərərək yerli məktəblilərə ingilis dili, oxu və riyaziyyat fənləri üzrə dərs dedim. Bu təcrübə mənim həm peşəkar, həm də şəxsi inkişafımda mühüm rol oynadı.



### "Xaricdə keyfiyyətli təhsil imkanı əldə etdim"

*- DP layihəsinin əhəmiyyəti, həyatınızda rolu, yaratdığı imkanlar barədə nə deyərdiniz?*

- Dövlət Proqramı layihəsi həqiqətən də gənclər üçün böyük bir fürsət və inkişaf platformasıdır. Proqrama qəbul prosesi özü belə insanı daha məqsədyönlü və məsuliyyətli olmağa təşviq edir. Müsahibə mərhələsinə hazırlaşarkən təkcə qəbul almağı deyil, eyni zamanda ölkədə təhsil sahəsindəki yenilikləri izləməyi, elmi məqalələr oxumağı, seçdiyim ixtisas üzrə hansı töhfələri verə və Azərbaycan təhsil sisteminin inkişafına necə dəstək ola biləcəyimi araşdırmağa başladım.

Bu proses mənim həm akademik, həm də şəxsi inkişafıma ciddi təsir göstərdi. Tənqidi düşünmə, özünütəhlil və psixoloji dayanıqlılıq kimi bacarıqlarımı gücləndirdim. Əminliklə deyə bilərəm ki, Dövlət Proqramı həyatımda dönüş nöqtəsi oldu. Məhz bu dəstək sayəsində xaricdə keyfiyyətli təhsil almaq, beynəlxalq təcrübə qazanmaq və daha geniş dünyagörüşü formalaşdırmaq imkanı əldə etdim.

Proqramın üstünlükləri məzun olduqdan sonra da davam edir. Məzunlara iş imkanları barədə mütəmadi məlumatların təqdim olunması və diplomların apostil prosedurundan azad olması kimi praktiki üstünlüklər gənclərin karyera yolunu daha da asanlaşdırır.

### "Bu Universitetdə təhsil almaq böyük uğur və məsuliyyətdir"

*- London Kral Kollecində təhsil sizə nələri qazandırdı?*

- Belə nüfuzlu bir universitetdə "Təhsildə menecment" (Education Management) ixtisası üzrə magistr təhsili almaq mənim üçün böyük uğur və məsuliyyət idi.

Proqram çərçivəsində təhsildə liderlik və idarəetmə, təhsil sistemlərinin müqayisəli təhlili, innovativ yanaşmalar, təhsildə bərabərlik və sosial siyasət kimi fənlər üzrə dərin biliklər əldə etdim. Eyni zamanda ixtisas üzrə sinif nümayəndəsi kimi fəaliyyət göstərərək təşkilati və liderlik bacarıqlarımı daha da inkişaf etdirdim. Multikultural mühitdə — müxtəlif ölkələrdən olan tələbə və müəllimlərlə birlikdə oxumaq mənə fərqli təhsil modellərini və yanaşmaları yaxından öyrənmək imkanı verdi.

Universitetin zəngin akademik mühiti, xüsusilə "Maughan Library" kimi geniş resurslara malik kitabxanası araşdırma və elmi fəaliyyət üçün böyük stimul yaradırdı. Tədris prosesi əsasən müstəqil araşdırma və yazılı layihələr üzərində qurulduğundan məsuliyyət və özünüidarə bacarıqlarımı gücləndirdi. Magistr təhsilimi "Merit" nəticəsi ilə başa vurdum. Xüsusilə "Educational Leadership" fənnində əldə etdiyim yüksək nəticə mənim üçün sadəcə qiymət deyil, bu sahədə inkişaf etməli olduğuma dair güclü bir motivasiya oldu.

*- Bu ixtisas sizin üçün nə dərəcədə cəlbedici sahədir?*

- Bu ixtisas mənim üçün sadəcə akademik seçim deyil, eyni zamanda gələcək karyera yolumun əsas istiqamətidir. Mən hər zaman təhsilin yalnız dərs deməklə məhdudlaşmadığını, effektiv idarəetmə və düzgün liderlik olmadan keyfiyyətli sistem qurmağın mümkün olmadığını düşünmüşəm. Məhz buna görə idarəetmə və liderlik sahəsi mənə çox cəlbedici görünür.

Xaricdən qayıtdıqdan sonra universitetdə menecment və administrativ sahədə çalışmaq, təhsil prosesinin təşkilinə, strategiyaların hazırlanmasına və tələbələr üçün daha əlverişli mühitin qurulmasına töhfə vermək istəyirəm. Bu məqsədlə özümü yalnız nəzəri biliklərlə məhdudlaşdırmadım və əlavə inkişaf proqramlarına qoşuldum. "PGLA — Principles of Global Leadership" və "Pathway to Governance" proqramlarında iştirak etdim və onların tələb etdiyi bütün tapşırıqları uğurla tamamladım.

Bu proqramlar mənə komanda işi, qərarvermə, strateji düşüncə, məsuliyyətli liderlik və effektiv ünsiyyət kimi vacib bacarıqlar qazandırdı.

### "Qarabağ Universitetində fəaliyyət göstərmək mənəvi missiyadır"

*- Qarabağ Universitetinin gənc müəllimi kimi hansı hissləri yaşayırsınız? Hazırda hansı ixtisası tədris edir və müəllim kimi təəssüratlarınızı bölüşməyinizi xahiş edirik...*

- Qarabağ Universitetində fəaliyyətə başlamaq mənim üçün yalnız bir iş yeri deyil, həm də mənəvi missiyadır. İngiltərəyə getməzdən əvvəl işğaldan azad olunmuş bölgələrimizin birində universitetimizin fəaliyyət göstərəcəyinə ürəkdən inanırdım. Magistr təhsilim zamanı Qarabağ Universitetinin açılacağı xəbərini eşidəndə isə qərarım daha da möhkəmləndi. Vətənə qayıtdıqdan sonra ilk müraciət etdiyim yer məhz Qarabağ Universiteti oldu. İlk qurucu müəllimlərdən biri olmaq, tamamilə fərqli və tarixi bir mühitdə yaşamaq və işləmək mənim üçün böyük qürur və məsuliyyətdir.

Mən burada ingilis dili müəllimi kimi fəaliyyət göstərirəm. Eyni zamanda baş mütəxəssis kimi də çalışıram. Məqsədim yalnız dərs keçmək deyil, xaricdə qazandığım təhsil və həyat təcrübəsini tələbələrimlə bölüşmək, onların dünyagörüşünün formalaşmasına töhfə vermək və həyat yollarında onlara az da olsa işıq olmaqdır. Gənclərimizin bu yeni mühitdə böyük həvəslə inkişaf etməsi mənə ilham verir və müəllim kimi ən böyük motivasiyamdır.

### "Qarabağda universitetin fəaliyyət göstərməsi regionun intellektual dirçəlişidir"

*- "Böyük Qayıdış"da təhsilin rolu barədə nə deyərdiniz?*

- "Böyük Qayıdış" prosesində təhsilin rolu strateji və təməl xarakter daşıyır. İnfrastrukturun qurulması, iqtisadi inkişaf və sosial həyatın bərpası nə qədər vacibdirsə, insan kapitalının formalaşdırılması da bir o qədər əhəmiyyətlidir.

Qarabağda universitetin fəaliyyət göstərməsi Böyük Qayıdışın ən güclü simvollarından biridir. Bu, sadəcə tədris prosesi deyil, həm də regionun intellektual dirçəlişidir. Gənclərin məhz burada təhsil alması, burada yaşaması və gələcəyini bu torpaqlarda qurması davamlı inkişafın əsasını qoyur.

Mən müəllim kimi hesab edirəm ki, bizim missiyamız yalnız dərs demək deyil, həm də yeni formalaşan cəmiyyətin dəyərlərini, dünyagörüşünü və peşəkar keyfiyyətlərini düzgün istiqamətləndirməkdir. Böyük Qayıdışın uğuru savadlı, məsuliyyətli və vətənpərvər gənclərdən keçir və bu yolun əsas açarı məhz təhsildir.

---

**O, Qarabağ Universitetini seçdi. Bu qərarı ilə də 30 ildən sonra azadlığına qovuşan Qarabağımızda təhsil quruculuğunun bir parçası olmaq əzmini ortaya qoydu. Xankəndidə yeni nəslin yetişdirilməsini öz missiyası hesab edir.**

**"Azərbaycan müəllimi" "Uğur hekayəsi" rubrikasında "2022—2028-ci illərdə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı" (DP) çərçivəsində Böyük Britaniyada magistr təhsilini başa vuraraq Qarabağ Universitetində fəaliyyətə başlayan Aytac Mehti qızı Yolçuyeva ilə müsahibəni oxucularına təqdim edir.**



## "Qarabağ Universitetində fəaliyyət mənim üçün mənəvi məsuliyyət və qürur hissidir"

### *"Dövlət Proqramı mənə əvəzsiz təcrübə qazandırdı"*

*- Sizi oxuculara necə tanıdaq?*

- Mən, Aytac Mehti qızı Yolçuyeva 24 dekabr 2001-ci ildə Ağdaş rayonunda anadan olmuşam. 2018-ci ildə Ağdaş şəhər M.Şeyxzadə adına Texniki, humanitar və təbiət fənləri təmayüllü Gimnaziyanı bitirmişəm. Həmin il DİM imtahanından 643 bal yığaraq Azərbaycan Dillər Universitetinin "Dil və ədəbiyyat müəllimliyi" (ingilis dili üzrə) ixtisasına qəbul olmuş və 2018—2022-ci illərdə bakalavr təhsili almışam.

2023—2024-cü illərdə Böyük Britaniya və Şimali İrlandiya Krallığında Dövlət Proqramı çərçivəsində təqaüdlə magistr təhsili alaraq "Erkən uşaqlıq təhsili" ixtisası üzrə ixtisaslaşmışam. Hazırda isə 2024-cü ildən etibarən Qarabağ Universitetinin Beynəlxalq Dil Mərkəzində ingilis dili müəllimi kimi fəaliyyət göstərirəm.




### "Qlobal təhsil trendlərini öyrəndim"

*- Dövlət Proqramı məzunu olaraq bu layihənin yaratdığı imkanlar barədə nə deyərdiniz?*

- DP layihəsi mənim üçün yalnız xaricdə təhsil imkanı deyil, həm də dünyagörüşümün genişlənməsi, fərqli təhsil sistemlərini yaxından öyrənmək və beynəlxalq akademik mühitdə formalaşmaq baxımından mühüm mərhələ oldu.

Bu layihə mənə müasir pedaqoji yanaşmalarla tanış olmaq, tədqiqat bacarıqlarımı inkişaf etdirmək və gələcəkdə ölkəmə daha faydalı mütəxəssis kimi qayıtmaq imkanı yaratdı. Eyni zamanda fərqli mədəniyyətlərlə ünsiyyət qurmaq və qlobal təhsil trendlərini öyrənmək baxımından da əvəzsiz təcrübə qazandım.

### "Təhsil sadəcə öyrətmək deyil"

*- Şeffild Universitetində təhsil həyatınız necə keçdi?*

- Magistr təhsilimi Böyük Britaniyanın aparıcı və dünyanın nüfuzlu ali təhsil müəssisələrindən biri olan Şeffild Universitetində davam etdirmişəm. Bu universitet elmi-tədqiqat ənənəsi, yüksək akademik standartları və beynəlxalq nüfuzu ilə seçilir.

Şeffilddə təhsil almaq mənim üçün sadəcə diplom əldə etmək deyildi, bu, düşüncə tərzimin dəyişməsi və təhsilə daha dərindən yanaşmağı öyrənməyim demək idi. Dərslər yalnız nəzəri bilik üzərində qurulmurdu; biz mövzuları real təhsil mühiti kontekstində analiz edir, uşağın inkişafını sosial, emosional və mədəni çərçivədə qiymətləndirirdik. Erkən uşaqlıq təhsili üzrə ixtisaslaşma mənə göstərdi ki, təhsil sadəcə öyrətmək deyil, düzgün mühit qurmaq, uşağın potensialını vaxtında görmək və onu incəliklə istiqamətləndirməkdir. Bu təcrübə müəllim kimi yanaşmamı daha həssas və məsuliyyətli etdi.

*- Erkən uşaqlıq təhsili ixtisası sizin üçün nə dərəcədə cəlbedici sahədir?*

- Erkən uşaqlıq təhsili mənim üçün son dərəcə məsuliyyətli və strateji əhəmiyyət daşıyan sahədir. Çünki insanın şəxsiyyət kimi formalaşmasının təməli məhz bu dövrdə qoyulur.

Bu ixtisas mənə uşaqların və gənclərin inkişaf mərhələlərini daha dərindən anlamaq, onların fərdi xüsusiyyətlərini nəzərə alan tədris strategiyaları qurmaq imkanı verdi. İnanıram ki, keyfiyyətli erkən təhsil gələcək cəmiyyətin sağlam təməlinin qurulmasında həlledici rol oynayır.

### "Xankəndidə auditoriyaya daxil olduğum ilk gün..."

*- Qarabağ Universitetində fəaliyyətə başlamağınız sizin üçün nə deməkdir?*

- Qarabağ Universitetində fəaliyyətə başlamaq mənim üçün təkcə yeni iş mərhələsi deyil, bu, mənəvi məsuliyyət və daxili qürur hissidir. Artıq bir il yarımdır ki, Qarabağda yaşayıram və bu torpaqda çalışmaq mənim üçün xüsusi məna daşıyır.

Xankəndidə auditoriyaya daxil olduğum ilk gün yaşadığım hissi sözlə ifadə etmək çətindir. Bu torpaqda dərs demək sadəcə peşə fəaliyyəti deyil, həm də bir missiyanın parçası olmaqdır. Beynəlxalq Dil Mərkəzində ingilis dili tədris edirəm. Hər dərsdə tələbələrin gözündə həm maraq, həm də gələcəyə dair ümid görürəm. Onların enerjisi insana əlavə motivasiya verir.

Mən çalışıram ki, onlara yalnız dil öyrətməyim, eyni zamanda özünə inam, sərbəst düşüncə və dünyaya açıq baxış qazandırım. Çünki inanıram ki, Qarabağda qurulan hər bir auditoriya, yazılan hər bir cümlə, yetişən hər bir tələbə gələcəyin möhkəm təməl daşlarından biridir. Bu prosesin bir hissəsi olmaq mənim üçün böyük şərəfdir.

### "Xankəndidə yeni nəslin yetişdirilməsi strateji baxımdan önəmlidir"

*- Xankəndidə yeni nəslin yetişdirilməsi və erkən uşaqlıq təhsili üzrə xarici təcrübənin tətbiqi ilə bağlı nə deyərdiniz?*

-Xankəndidə yeni nəslin yetişdirilməsi strateji baxımdan olduqca önəmlidir. Erkən uşaqlıq təhsili sahəsində xarici təcrübənin tətbiqi burada keyfiyyətli və müasir təhsil modelinin qurulmasına töhfə verə bilər.

Təkliflərim arasında müəllimlərin davamlı peşəkar inkişaf proqramlarına cəlb olunması, oyun əsaslı və uşaqyönümlü tədris metodlarının tətbiqi, valideyn maarifləndirilməsi proqramlarının təşkili və inklüziv mühitin gücləndirilməsi xüsusi yer tutur. Bu yanaşmalar regionda dayanıqlı və keyfiyyətli təhsil sisteminin formalaşmasına xidmət edə bilər.

*- "Böyük Qayıdış"da təhsilin rolunu necə qiymətləndirərdiniz?*

- Böyük Qayıdış təkcə insanların doğma torpaqlarına fiziki dönüşü deyil, həm də həyatın, ümidin və gələcəyin yenidən qurulmasıdır.

Çünki məktəbdə yanan ilk işıq, auditoriyada səslənən ilk mühazirə, yazılan ilk cümlə əslində gələcəyə atılan addımdır. Təhsil Qarabağda yalnız bilik vermək funksiyası daşımır; o, inamı bərpa edir, kimliyi möhkəmləndirir və yeni nəslə "burada gələcək var" mesajını ötürür.

İnanıram ki, bu torpaqlarda yetişən hər bir savadlı, dünyagörüşlü və vətənpərvər gənc "Böyük Qayıdış"ın ən canlı və davamlı nəticəsidir. Təhsil burada sadəcə inkişaf vasitəsi deyil, həm də yaddaşın, ümidin və sabaha olan inamın qoruyucusudur.

**Səhifəni hazırladı: Oruc Mustafayev**

# Dünyanın ən savadlı ölkələri

**Bir ölkədə təhsilli insanların sayı çox vaxt həmin ölkənin nə dərəcədə firavan olacağı ilə əlaqələndirilir. İstər məhsuldarlıq, istərsə də innovasiya baxımından, daha təhsilli işçi qüvvəsi ölkənin ümumi iqtisadiyyatına daha böyük töhfə verə bilər. "Azərbaycan müəllimi" xəbər verir ki, dünyada 25—64 yaş arası milyonlarla insan bakalavr dərəcəsinə malikdir. Bu yazıda hansı ölkə və ərazilərdə bu göstəricinin daha yüksək olduğunu əks etdirən siyahı təqdim olunur. Bu statistika insanların sayına deyil, hər bir ölkə və ərazinin ümumi əhalisinə nisbətdə faiz göstəricisinə əsaslanır. Məsələn, Hindistanda bakalavr dərəcəsi olan insanların sayı ilk 11 ölkənin ümumi göstəricisindən çox olsa da, bu insanlar ölkə əhalisinin 15%-dən azını təşkil etdiyi üçün Hindistan ilk 30-luğa düşmür. Bəs siyahıda hansı ölkə və ərazilər yer alır?**

### 1. İrlandiya

**Birinci yerdə İrlandiya qərarlaşıb — burada işçi qüvvəsinin heyrətamiz 52,4%-i bakalavr dərəcəsinə malikdir! İrlandiyada dövlət universitetləri münasib qiymətə, müasir və tədqiqata əsaslanan təhsil təklif edir. Ölkə həmçinin dünyanın ən güclü iqtisadiyyatlarından birinə sahibdir ki, bu da uğurun açıq göstəricisidir.**

### 2. İsveçrə

**İsveçrədə 25—64 yaş arası işçi qüvvəsinin təxminən 46%-i bakalavr dərəcəsi əldə edib. Sürix və Lozanna şəhərlərində yerləşən nüfuzlu universitetləri ilə İsveçrə elm, mühəndislik və biznes sahələrində üstün nailiyyətləri ilə tanınır.**

### 3. Sinqapur

**Sinqapur bu siyahıda ən yüksək göstəriciyə malik Asiya ölkəsidir — 45%. Kiçik, lakin güclü olan bu ölkənin universitetləri dünya miqyasında yüksək reytinqlərə malikdir. Təhsil sistemi nəticəyönümlü və yüksək maliyyələşdirilmə ilə səciyyələnir.**

### 4. Belçika

**Belçikanın işçi qüvvəsinin təxminən 44,1%-i ali təhsilə malikdir. Çoxdilli ali təhsil sistemi müxtəlif tələbə qruplarına xidmət edir və dövlət universitetləri regional üstünlükləri nüfuzlu biznes proqramları ilə birləşdirir.**

### 5. Birləşmiş Krallıq

**İlk beşliyə 43,6% göstərici ilə Birləşmiş Krallıq daxildir. Oksford və Kembric kimi elit ali təhsil müəssisələri ölkənin güclü ali təhsil məkanı kimi müəyyənləşdirir, baxmayaraq ki, son illərdə maliyyələşmə ilə bağlı çətinliklər yaşanır.**

### 6. Niderland

**Niderlandda işçi qüvvəsinin təxminən 42%-i ali təhsil alıb. Universitetlər Avropa Birliyi tələbələri üçün adətən münasib qiymətlidir, dərslər geniş şəkildə ingilis dilində tədris olunur və beynəlmiləlləşməyə xüsusi önəm verilir.**

### 7. ABŞ

**ABŞ-da 25—64 yaş arası əhalinin təxminən 40,3%-i bakalavr dərəcəsi əldə edib. Bu, təxminən 78,2 milyon insan deməkdir. Dövlət və özəl sektorda dünya üzrə yüksək reytinqli bir çox universitetlərə ev sahibliyi edən ABŞ geniş imkanlar təqdim edir. Lakin təhsil haqları və tələbə borcları mühüm mənfi tərəflərdir.**

### 8. Avstraliya

**Avstraliyada ali təhsillilər 39,8% təşkil edir. "Səkkizlər Qrupu" (ölkənin aparıcı universitetlərinin koalisiyası) tədqiqat və beynəlxalq tələbələrin inteqrasiyası sahəsində qlobal səviyyədə tanınır. Xərclər yüksək ola bilər, lakin təhsilin keyfiyyəti güclü və balanslıdır.**

### 9. İsrail

**İsraildə ali təhsillilərin faiz göstərici 39,7-dir. Dövlət universitetləri yüksək tədqiqat fəallığı ilə güclü texnologiya və biznes təhsili təqdim edir.**

### 10. İsveç

**İlk 10-luğa daxil olan sonuncu Skandinaviya ölkəsi İsveçdir — burada işçi qüvvəsinin 39,6%-i ali təhsili tamamlayıb. Ödənişsiz dövlət universitetləri bərabərlik və innovasiyanı təşviq edir, güclü beynəlxalq yönümlülüyə malikdir və xüsusilə tədqiqat və yaradıcı düşüncə sahəsində fərqlənir.**

### 11. Cənubi Koreya

**Cənubi Koreyada göstərici 39,4%-dir. Universitetlər xüsusilə STEM (elm, texnologiya, mühəndislik və riyaziyyat) və tədqiqat sahəsində fərqlənir. Sistem ciddi tələblər və yüksək gözləntilərlə yanaşı, güclü rəqabət və təzyiq yaradır.**

### 12. Tayvan

**Tayvanda işçi qüvvəsinin təxminən 38,9%-i bakalavr dərəcəsinə malikdir. Dövlət tərəfindən subsidiyalaşdırılan universitetlər güclü texniki və mühəndislik proqramlarına üstünlük verir, əlçatanlıqla keyfiyyətli tədqiqat fəaliyyətini balanslaşdırır və xüsusilə STEM tələbələrini cəlb edir.**

### 13. Polşa

**Polşada dövlət ali təhsil müəssisələrində təhsil ödənişsizdir. Keyfiyyət yüksəlir, lakin ümumi iştirak səviyyəsi hələ Qərbi Avropa ölkələri ilə eyni deyil. Hazırda 25—64 yaş arası əhalinin 37,9%-i ali təhsili başa vurub.**

### 14. Danimarka

**Danimarkada işçi qüvvəsinin 37,7%-i bakalavr təhsilinə malikdir. Universitetlər ödənişsizdir və qrup işi ilə innovasiyaya önəm verir. Onlar əməkdaşlığa və dizayn yönümlü təhsil mədəniyyətinə üstünlük verir, qlobal əhəmiyyət daşıyır.**

**Oruc MUSTAFAYEV**

"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 441 **Sifariş:** 259

**Məsul növbətçi:** O.Mustafayev




# Eibarsız sayılır

**289 nömrəli "Zəngi" Liseyini** 2020-ci ildə bitirmiş Cəbrayılova Mehin Rəşad qızına verilmiş E-285244 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Məmmədli Rauf Natiq oğluna verilmiş E-345647 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 8 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Nağıyev Murad Zamin oğluna verilmiş E-447584 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2017-ci ildə Məhəmmədli Türkan Ağalar qızına verilmiş AT-003824 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 50 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Şahmarov Yunsur Xudayar oğluna verilmiş A-306772 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyası** tərəfindən 2017-ci ildə Osmanov Murad Məmməd oğluna verilmiş A-120054 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 24 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş İmaməliyeva Ayan Aqil qızına verilmiş E-762224 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Haşımova Samirə Telman qızına verilmiş A-516871 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Şahvəlilər kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Abuzərli Abuzər Hacı oğluna verilmiş A-236320 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 141 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Əliyev Rəşad Elxan oğluna verilmiş A-376560 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**V.İ.Lenin adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Dövlət Pedaqoji İnstitutu** (indiki N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti) tərəfindən 1981-ci ildə Həmidova Ellada Aslan qızına verilmiş ЖB-034801 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2024-cü ildə Məmmədbəyova Ayşən Məmmədbəy qızına verilmiş C-224630 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 14 nömrəli tam orta məktəbin VIII sinfini 1988-ci ildə bitirmiş Hacıyev Tofiq Şahbaz oğluna verilmiş ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 3 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Eyvazova Aygün Tofiq qızına verilmiş A-042349 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Boradigah qəsəbə 2 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Rəhmətzadə İlahə Zaur qızına verilmiş E-224531 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Böyük Kolatan kənd tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Təzəxanlı Tural Fuad oğluna verilmiş 511959 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Səmədxanlı kənd tam orta ümumtəhsil məktəbin VIII sinfini 1987-ci ildə bitirmiş Mustafayeva (Əliyeva) Esmira Malik qızına verilmiş 139659 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Binə Xocavar kənd tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Rufullayeva Gülnarə Vaqif qızına verilmiş A-103561 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Mollaoba kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədova Gülsənəm Zakir qızına verilmiş B-042376 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Kolleci** tərəfindən 2008-ci ildə Ağayeva Hökümə Faiq qızına verilmiş BB-II-069558 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Bulduq kənd tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Nağıyev Fərid Asif oğluna verilmiş A-138291 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 22 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Yunusova Lalə Afət qızına verilmiş A-514856 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci** tərəfindən 2024-cü ildə Alıyeva Günay Elçin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 6 nömrəli tam orta məktəb-liseyi 2022-ci ildə bitirmiş Əliyev Hüseyn Zaur oğluna verilmiş E-480793 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 39 nömrəli tam orta ümumtəhsil məktəbi 2002-ci ildə bitirmiş Dadaşev İmran Eldar oğluna verilmiş A-586460 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 89 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Hacıbəyov Tamerlan İlyas oğluna verilmiş E-655502 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 275 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Məmmədov Həzrətəli İslam oğluna verilmiş A-020927 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Güzdək qəsəbə tam orta ümumtəhsil məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Sultanov Elnur Əzim oğluna verilmiş B-459730 nömrəli ümumi orta təhsil haqqında attestat (şəhadətnamə) itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 260 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Abbasova (Əsədova) Ümüdə Valeh qızına verilmiş B-357289 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 318 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Nəsibzadə Arzu Zöhrab oğluna verilmiş E-461602 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** İsmayılbəyli kənd tam orta ümumtəhsil məktəbi 1989-cu ildə bitirmiş Alışov Veysəl Valeh oğluna verilmiş AK-587428 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Qazyan kənd tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Abışov Elçin Razim oğluna verilmiş B-038863 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 42 nömrəli tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Cabbarov Zülfüqar Yaşar oğluna verilmiş A-294044 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 8 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Feyzullayeva Türkan Tahir qızına verilmiş B-624617 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli tam orta məktəb-liseyi 2007-ci ildə bitirmiş Baxşəliyev Bahadur Mübariz oğluna verilmiş B-364039 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Gülgəzli kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Hüseynov Cavad İlham oğluna verilmiş A-370390 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Böyük Əmili kənd tam orta ümumtəhsil məktəbi 1996-cı ildə bitirmiş Məmmədova Məlahət Dursunəli qızına verilmiş A-079593 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qərb Universiteti** tərəfindən 2003-cü ildə Məmmədova Natəvan Namiq qızına verilmiş A-131023 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Ağayev Nicat Hacıağa oğluna verilmiş A-205619 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 299 nömrəli məktəb-liseyi 2022-ci ildə bitirmiş Hüseynli İslam Ruslan oğluna verilmiş E-454060 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 6 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş İbrahimli Aytac Vüqar qızına verilmiş A-104181 nömrəli ümumi tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Əhmədov Taleh Məsim oğluna verilmiş A-344177 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2017-ci ildə Quliyev Oruc Telman oğluna verilmiş A-110873 nömrəli bakalavr fərqlənmə diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Qaradağlı kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Məmmədli Rüfət Şahbaz oğluna verilmiş B-336069 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universitetinin Şəki** tədris məntəqəsi tərəfindən 2003-cü ildə Aslanova Gülşən Etibar qızına verilmiş A-147852 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Cəfərov Murad Çingiz oğluna verilmiş E-235529 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2010-cu ildə Quliyev Camal Zahid oğluna verilmiş B-178237 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Çiçəkli kənd tam orta ümumtəhsil məktəbi 1998-ci ildə bitirmiş Həsənova İradə Fərhad qızına verilmiş A-229494 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Yuxarı Aran qəsəbə tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Qarayev Pərvin Elnur oğluna verilmiş E-613729 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Kolleci** tərəfindən 2013-cü ildə Quliyeva Fərqanə Məhərrəm qızına verilmiş AA-028664 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 145 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Nəsirova Nərgiz Rauf qızına verilmiş A-098081 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2025-ci ildə Əhmədov Emin Mətləb oğluna verilmiş C-283132 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Saray qəsəbə 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Abdullayev Elşən Xoşbəxt oğluna verilmiş B-390232 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Maşxan kənd tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Avsalova Şəbnəm Allahyar qızına verilmiş B-189338 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 46 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əhmədova Gülşən Arif qızına verilmiş B-364353 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 187 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Quliyeva İradə Bəymirzə qızına verilmiş ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdam Musiqi Kolleci** tərəfindən 2012-ci ildə Göyüşova (Quliyeva) Ləman Fəxrəddin qızına verilmiş AA-014828 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 297 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Həsənova (Bağırova) Cəmalə Şahlar qızına verilmiş A-151225 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 27 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Xəlilzadə Zahir Yaqub oğluna verilmiş E-415121 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 3 nömrəli məktəb-liseyi 1989-cu ildə bitirmiş Şıxalıyev Qadir Hüseyn oğluna verilmiş 583178 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 6 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Novruzova Günay Novruzqulu qızına verilmiş B-051500 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Şükürbəyli kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Mehdizadə Əli Emil oğluna verilmiş E-244702 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Dövlət Sərhəd Xidmətinin Akademiyası** tərəfindən 2012-ci ildə Bayramov Amil İlham oğluna verilmiş B-230051 nömrəli bakalavr diplomu və diploma əlavə, N-000068 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Humanitar Kolleci** tərəfindən 2018-ci ildə Tarverdiyev Murad Xubyar oğluna verilmiş AA-116580 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 162 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Qarayev Fərid Nəbi oğluna verilmiş E-470436 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**S.Bəhlulzadə adına Xarici dillər təmayüllü gimnaziyanı** 2015-ci ildə bitirmiş Mənsimzadə Aytac İsmət qızına verilmiş A-418568 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.